## Gədəbəydə alkoqolsuz içki istehsalı müəssisəsinin fəaliyyətinin məhdudlaşdırılmasına dair məlumat

**(5 iyun 2023)**

Nəzarət tədbirləri çərçivəsində Agentlik əməkdaşları tərəfindən Gədəbəy rayonu, Slavyanka kəndində fəaliyyət göstərən Yusifova Nüşabə İbrahim qızına məxsus “Öz Elim” əmtəə nişanlı alkoqolsuz içki (limonad) istehsalı müəssisəsində keçirilmiş yoxlama zamanı sanitar norma və qaydaların, eləcə də qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinin pozulduğu aşkarlanıb. Faktlarla bağlı qanunvericiliyə uyğun olaraq fiziki şəxs barəsində inzibati protokol tərtib olunub və müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.